https://doi.org/10.59849/3006-1342.2025.2.51
UOT 94(479.24)

*Xanım İradil qızı Əsədova*
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*Tarix üzrə fəlsəfə doktoru*
*E-mail: xanim.as@mail.ru*
*https://orcid.org/0009-0009-7476-3354*

# HEYDƏR ƏLİYEV VƏ DÖVLƏT GƏNCLƏR SİYASƏTİ

*Məqalədə 1969-1982-ci illərdə ölkəyə ilk rəhbərlik etdiyi dövrdəki fəaliyyəti ilə uzaqgörən və qətiyyətli siyasətçi kimi özünü tanıdan ümummilli lider Heydər Əliyevin şəxsiyyəti araşdırılır. Həmin müddətə qədər Azərbaycanda iqtisadiyyatda və mədəniyyətdə geriləmə müşahidə etmək olardı. Ümummilli liderin hakimiyyətə ilk gəlişi ilə ölkədə sürətli yüksəliş, milli ruhun inkişafı, mənəviyyatın tərəqqisi dövrü başlandı. Heydər Əliyev hər zaman gənclərimizə böyük ümidlər bəsləmiş, Azərbaycanın gələcəyinin gənclərin əlində olduğunu dönə-dönə qeyd etmişdir. Heydər Əliyevin miras qoyduğu gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Heydər Əliyevin elm, incəsənət və ədəbiyyat xadimlərinə dərin ehtiramı ən yeni tariximizin tərcümeyi-halında ən qürurverici səhifələrdən biridir. Bu, həm də azərbaycançılıq ideyasının geniş yayılmasına və dərindən mənimsənilməsinə uğurlu xidmətdir. Ulu öndər deyirdi ki, xalq öz kökünü həmişə yadda saxlamalı, tarixini öyrənməli, heç vaxt öz milli mədəniyyətindən, elmindən ayrılmamalıdır. İndiki nəsil tariximizin nə qədər zəngin olduğunu, Azərbaycan xalqının dünya mədəniyyətinə hansı töhfələr verdiyini dərk etməli, onlarda milli qürur və vətənpərvərlik hisslərini daha da gücləndirməlidir. Çünki bu, müstəqil Azərbaycanda bizim üçün çox lazımlı amildir. Yaradıcı gənclərin istedadlı nümayəndələrinə Prezident mükafatlarının təqdim edilməsi də ümummilli liderin əsasını qoyduğu gərgin əməyin və təşəbbüslərin stimullaşdırılması siyasətinin konkret davamıdır. Heydər Əliyev siyasətinin əsasında gənclərə qarşı böyük arzular dayanırdı. Bu istəklər o qədər prioritet idi ki, ümummilli liderin ən sevincli və ən kədərli anlarında unudulmadı, onun düşüncə və mülahizələrinin ana xəttinə çevrildi. Böyük şəxsiyyət tövsiyə etmişdir ki, qürur mənbəyimiz olan klassiklərimizin, görkəmli ziyalılarımızın həyatı gənclərə daim örnək olmalıdır.*

*Açar sözlər:* Azərbaycan, Heydər Əliyev, gənclik, təşkilat, siyasət

## *Giriş*

Məqalədə Azərbaycanın Prezidenti Heydər Əliyevin müstəqillik dövründə, rəhbərliyi altında Azərbaycanda gənclər siyasətinin formalaşması və həyata keçirilməsi problemi araşdırılır. Fikir əsaslandırılır ki, dövlət suverenliyinin əldə edilməsi ilə Azərbaycan gənclərində yeni prinsiplər, mənəvi dəyərlər, həyata yeni baxışlar sistemi formalaşmağa başlayıb. Heydər Əliyevin rəhbərliyi ilə gənclər siyasəti gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etmək məqsədilə dövlət tərəfindən ictimai-siyasi, təşkilati-hüquqi şərait və təminatların yaradılmasına yönəlmiş tədbirlər sistemi həyata keçirilib. Həmin siyasət çox geniş məsələləri əhatə edir – gənclərin təhsili, sağlamlığı, intellektual və mənəvi inkişafı, onların asudə vaxtlarının təşkili, gənclərin problemlərinin həlli, hüquqlarının müdafiəsi ilə bağlıdır [4, s. 15].

*Əsas hissə*

Bütün xalqlarda, həmçinin Azərbaycan xalqı üçün vacib tarixi nailiyyət olan dövlət müstəqilliyini qazanmaqdan əhəmiyyətli olay yoxdur. Müstəqillik Azərbaycanın tarixində ən mühüm hadisədir. XX əsrin əvvəllərində ölkəmizdə əldə edilən ilk dövlət müstəqilliyi bütün türk-müsəlman dünyasının tarixində dönüş nöqtəsi yaratdı. Amma AXC-nın qısamüddətli müstəqilliyinin ağır taleyi müstəqilliyin əldə edilməsindən daha çox qorunub möhkəmləndirilməsinin və saxlanmasının vacibliyini nümayiş etdirdi [3]. Azərbaycan dövlətin xilaskarı, onun möhkəm dayaqlarını yaradan və Azərbaycan xalqının 2-ci dövlət müstəqilliyinə nail olmaq şansının ideoloji lideri – Heydər Əliyevdir. Müstəqilliyi əbədi sərvətə çevirən tarixi şəxsiyyət dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyev oldu. Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri də gənc nəslə diqqətin artırılması, yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin vacib prinsiplərinin müəyyənləşdirilməsi, gənclərin respublikamızın sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakının təmin edilməsi, gənclərin sosial-mənəvi tələbatının ödənilməsi, onların layiqli vətəndaşlarının formalaşması və inkişafı üçün düzgün şərait yaradılması idi. Gənclik xalqın ümididir, onun inkişaf və tərəqqisinin vacib meyarıdır, çünki hər bir cəmiyyətin maddi və mənəvi tərəqqisi gənclər siyasətinin düzgün təşkilindən, qurulmasından və həyata keçirilməsindən, sosial-psixoloji vəziyyətdən, gənclərin fəaliyyətinin həyata keçirilməsi üçün yaradılan mühütdən asılıdır. XX əsrin 90-cı illərin əvvəllərində Sovet Sosialist Respublikaları İttifaqının yeganə gənclər təşkilatı olan komsomolun fəaliyyətinə xitam verildi. Müstəqilliyin ilk illərində xalqın bütün təbəqələri və sosial qrupları arasında müşahidə olunan milli oyanış, ictimai-siyasi fəallıq gənclərdən də yan keçmədi. Azərbaycan gənclərində yeni prinsiplər, mənəvi dəyərlər, həyata yeni baxışlar sistemi formalaşmağa başladı. Vəzifələri və məqsəd, fəaliyyət sahələri, sosial tərkibi ilə bir-birindən fərqli olan yeni azad gənclər təşkilatları yaradılmağa başladı. İlk yaranan gənclər təşkilatları respublikanın ərazi suverenliyi və bütövlüyü uğrunda mübarizə aparan millət hərəkatının təsiri altında kortəbii formalaşmağa başladı. Lakin "1991-1993-cü illərdə respublikada yaranmış gənclər təşkilatlarının çoxunda xaos və qarışıqlıq şəraitində populizm və siyasiləşmə meylləri üzə çıxdı. Təşkilatların əksəriyyəti o dövrdə fəaliyyət göstərən çoxistiqamətli siyasi partiya və qrupların təsiri altına düşdü [5, s. 120]. Zaman gənc nəsillərin fərqli partiya və qrupların deyil, Azərbaycanın müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü müdafiə etməsi, ölkədə hüquqi demokratik dövlət quruculuğu proseslərinə xidmət etməsi üçün gəncləri səfərbər etmək, vahid gənclər siyasətinin hazırlanması və həyata keçirilməsi vəzifəsini qarşıya qoyub”. Bununla da, Azərbaycanda dövlət gənclər siyasəti 93-cü ildən başlayaraq formalaşmağa təkan verildi. Sentyabrın 22-də 1993-cü ildə Azərbaycan Prezidentinin səlahiyyətlərini icra edən Heydər Əliyev gənclər qruplarından biri ilə görüşərək Azərbaycan gənclərini ölkənin taleyinə biganə qalmamağa və ictimai-siyasi həyatında daha fəal olmağa çağırdı. Gənclərlə iş istiqamətində dövlət siyasətinin əhəmiyyətini nəzərə alaraq, iyunun 26-da 94-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyev yeni dövlət sisteminin – Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman verdi və bu siyasəti həyata keçirməyə çağırdı [1, s. 78]. Bu yeni nazirliyin qarşısında duran vacib vəzifələrdən biri də gənc nəslin Vətənə, xalqa sevgi ruhunda tərbiyəsi, mənəvi tələbatlarının ödənilməsi, gənclərin sosial-iqtisadi problemlərinin həlli, gənc nəslin hərtərəfli inkişafı üçün şəraitin yaradılması ilk prioritetlərdən olmuşdur. Həmin dövrün şərtləri ilə ölkədə fəaliyyət göstərən çoxsaylı gənclər təşkilatlarının fəaliyyətini əlaqələndirmək vaciblik yarandı. 1996-cı il fevralın 2-də bu vacib işin həyata keçirilməsini təmin etmək üçün Prezident Heydər Əliyevin məxsusi Sərəncamı ilə keçirilən Müstəqil Azərbaycan Gənclərinin I Forumunun böyük əhəmiyyəti olmuşdur. Həmin Forumda gənclərin bütün pillələri təmsil edən 2000 çox gənc iştirak edib: universitet və kollec tələbələri, hərbi qulluqçular, Azərbaycan mediasının işçiləri, partiyalar və gənclər təşkilatları. Heydər Əliyevin başçılıq

etdiyi bütün dövlət orqanlarının rəhbərləri forumun işində fəal iştirak etmiş, gənclərin təklif, iradlarını və arzularını dinləmiş, ölkə gənclərinin problemlərini hərtərəfli öyrənmişlər. Azərbaycan Prezidenti Forumda çıxış edən gənclərin qarşısında çox böyük və mühüm vəzifələr dayandığı fikrini söyləmişdir ki, bunlardan əsası müstəqil Azərbaycan Respublikasının inkişafına, dövlətin əbədiyaşarlığına öz gücünü, bacarığını və istedadını sərf etməkdir [3, s. 31]. Dövlət başçısı qarşıya qoyulan vəzifələrin icrası üçün gənclər arasında hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsini, ordunun gücləndirilməsinə xüsusi diqqət yetirilməsini tələb edib. Vurğulayıb ki, gənclər təşkilatının əsas vəzifəsi hər bir gənci orduya hazırlamaq olmalıdır. "Hər bir gənc orduya səfərbərliyə və onun sıralarında xidmətə hazır olmalı, bunu özü üçün böyük şərəf hesab etməlidir" [2, s. 121]. 1993-2003-cü illərdə ölkə Prezidenti Heydər Əliyevin qəbul etdiyi dövlət proqramlarının əksəriyyətində də gənclərin həyat və fəaliyyəti ilə bağlı müvafiq meyarlar öz əksini tapmışdır. Uşaq, yeniyetmə və gənclərin inkişafını təmin etmək, problemlərini həll etmək və hüquqlarını qorumaq məqsədi ilə mayın 6-da 2002-ci ildə Prezident Heydər Əliyevin müvafiq fərman imzalaması ilə qüvvəyə minmiş "Dövlət gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. 14 maddədən ibarət qanun Azərbaycan Respublikasında gənclər siyasətinin məqsədlərini, prinsiplərini, əsas istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən etmək və bu sahədə yaradılmış münasibətləri tənzimləmək məqsədi daşıyır. Qanunada, "gənc" dedikdə 16-35 yaş arasında olan şəxslər nəzərdə tutulur. Gənclər siyasəti ilə bağlı qəbul edilən qanun və sərəncamların əsas məqsədi gənclərin fiziki, əqli və əxlaqi inkişafına şərait yaratmaq, onların bacarıqlarını reallaşdırmağa kömək göstərməkdir. Və ölkənin ictimai-siyasi həyatında fəal iştirak, bacarıqlı və istedadlı gənclərin üzə çıxarılması, onlara dövlət idarəçiliyi vərdişlərinin aşılanması, gənclər arasında hüquq pozuntularının, cinayətlərin və digər neqativ halların qarşısının alınması vərdişləri aşılamaqdır.

## *Nəticə*

Azərbaycan Skautlar Assosiasiyasının Skaut Hərəkatının Beynəlxalq Təşkilatına, Gənc Hüquqşünaslar Şurasının Beynəlxalq Assosiasiyasına, Demokratik Tələbə-Gənclər Təşkilatının Beynəlxalq Demokratik Tələbələr İttifaqına üzvlüyə qəbul edilməsi Azərbaycan həqiqətlərinin, xalqımızın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılmasının mühüm vasitəsinə çevrilmişdir [6, s. 243]. Qeyri-hökumət təşkilatlarının (QHT) inkişafı ölkəmizdə dövlət gənclər siyasətinin parlaq göstəricilərindən biri də Azərbaycanın gənclər hərəkatıdır. Vətəndaş cəmiyyətinin əsas faktorlardan biri də qarşıya qoyulan vəzifə və məqsədlərə nail olmaq üçün cəmiyyətin ən fərqli təbəqələrinin qeyri-kommersiya təşkilatlarında birləşmək hüququnun həyata keçirilməsidir. Son illər öz sıralarında daha çox gənci birləşdirən, ölkədə ictimai strukturların, fondların inkişafında, demokratik dəyərlərin formalaşmasında QHT-nin əhəmiyyətli xidmətləri var. Gənclər dünyada qəbul olunmuş sivil intellektual forma və üsullardan istifadə edərək gənclərin müxtəlif problemlərini araşdırır, cəmiyyətimizin sosial-iqtisadi, mənəvi-mədəni inkişafına öz töhfələrini verirlər.

## ƏDƏBIYYAT


1. "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir". 1-ci cild. Bakı, 2013, 632 s.
2. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti. (1991-2003). II hissə. Bakı, 2015, 664 s.
3. Heydər R. İlhamlı gələcək. (Qaradağ simfoniyası). Bakı, 2004, 268 s.
4. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı, 2003. 504 s.
5. Yusifov M. Milli Lider və müstəqil dövlətçilik. Bakı, 2005, 210 s.
6. "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir". 2cild. Bakı, 2013, 752 s.

УДК 94(479.24)

*Ханум Исмаил кызы Асадова*
*Азербайджанский Государственный Аграрный Университет*

ГЕЙДАР АЛИЕВ И ГОСУДАРСТВЕННАЯ МОЛОДЁЖНАЯ ПОЛИТИКА
*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, Гейдар Алиев, молодёжь, организация, политика

В статье рассматривается личность общенационального лидера Гейдар Алиева, который проявил себя как дальновидный и решительный политик, когда впервые возглавил страну с 1969 по 1982 год. До этого времени в Азербайджане наблюдался упадок экономики и культуры. С первым приходом к власти общенационального лидера в стране начался период бурного роста, развития национального духа и прогресса духовности. Общенациональный лидер Гейдар Алиев всегда возлагал большие надежды на нашу молодежь и неоднократно отмечал, что будущее Азербайджана в руках молодежи. Молодежная политика, определенная великим лидером Гейдаром Алиевым, сегодня успешно продолжается Президентом Ильхамом Алиевым. Глубокое уважение Гейдара Алиева к деятелям науки, искусства и литературы является одной из самых гордых страниц в биографии нашей недавней истории. Это также является успешным служением широкому распространению и глубокому усвоению идеи азербайджанства. Великий лидер сказал, что народ должен всегда помнить свои корни, изучать свою историю, никогда не расставаться со своей национальной культурой и наукой. Нынешнее поколение должно осознать, насколько богата наша история и какой вклад внес азербайджанский народ в мировую культуру, и еще больше усилить в себе чувство национальной гордости и патриотизма. Потому что это очень нужный фактор для нас в независимом Азербайджане. Вручение Президентских премий талантливым представителям творческой молодежи также является конкретным продолжением политики стимулирования трудолюбия и инициатив, заложенной общенациональным лидером. В основе политики Гейдара Алиева лежали великие стремления в отношении молодежи. Эти стремления были настолько приоритетными, что не забывались общенациональным лидером ни в самые счастливые, ни в самые грустные минуты, становясь главной линией его мыслей и размышлений. Великая личность рекомендовала, чтобы жизнь наших классиков, наших выдающихся интеллектуалов, являющихся предметом гордости, всегда была примером для молодежи.

UDC 94(479.24)

*Xanim İsmail Asadova*
*Azerbaijan State Agricultural University*

HEYDAR ALİYEV AND STATE YOUTH POLİCY
*SUMMARY*

*Key words:* Azerbaijan, Heydar Aliyev, youth, organization, politics

The article examines the personality of national leader Heydar Aliyev, who proved himself to be a far-sighted and decisive politician when he first led the country from 1969 to

1982. Until this time, Azerbaijan had been experiencing economic and cultural decline. With the first coming to power of the national leader, a period of rapid growth, development of the national spirit and progress of spirituality began in the country. National leader Heydar Aliyev always placed great hopes on our youth and repeatedly noted that the future of Azerbaijan is in the hands of the youth. The youth policy defined by the great leader Heydar Aliyev is successfully continued today by President Ilham Aliyev. Heydar Aliyev's deep respect for figures of science, art and literature is one of the proudest pages in the biography of our recent history. This is also a successful service to the wide dissemination and deep assimilation of the idea of Azerbaijanism. The Great Leader said that the people should always remember their roots, study their history, never part with their national culture and science. The current generation must realize how rich our history is and what contribution the Azerbaijani people have made to world culture, and further strengthen their sense of national pride and patriotism. Because this is a very necessary factor for us in independent Azerbaijan. The presentation of Presidential Prizes to talented representatives of creative youth is also a concrete continuation of the policy of stimulating hard work and initiatives laid down by the national leader. Heydar Aliyev's policy was based on great aspirations towards the youth. These aspirations were so high-priority that they were not forgotten by the national leader in his happiest or saddest moments, becoming the main line of his thoughts and reflections. The great personality recommended that the lives of our classics, our outstanding intellectuals, who are a source of pride, should always be an example for the youth.

***Daxil oldu: 01.07.2025-ci il***